UOT 619..576.89;619..616.995.1

# ŞAHBUZ RAYONUNUN YAYLAQLARINDA QOYUNLARIN DIKTIOKAULYOZUNA QARŞI PROFİLAKTİKİ TƏDBİRLƏR

**F.N.İBADOV**
**Naxçıvan Dövlət Universiteti**

*Məqalədə Şahbuz rayonunun yaylaqlarında qoyunların diktiokaulyozuna qarşı otlaqların növbəli istifadəsinin öyrənilməsi öz əksini tapmışdır. Tədqiqatlar Şahbuz rayonunun Batabat, Əhməd yurdu, Kələkli yurdu və Quluyurdu yaylaqlarının fərdi və fermer təsərrüfatlarında aparılmışdır. Ümumilikdə hər yaylaqda təcrübə və nəzarət qrupunda otarılan sürülərin 150 başından kal nümunələri götürülmüşdür. Tədqiqatın gedişində qeyd edilən yaylaqlar əvvəldən təcrübə qruplarının otarılması üçün küzlərə bölündü. Qoyunlar hər bir küzdə bir həftə otarılmaqla otlaqlardan növbəli istifadə edildi. Qoyunlarda aparılmış helmintlyarvoskopik müayinələrin nəticələrinin təhlili göstərdi ki, təcrübə qrupları ilə nəzarət qrupları arasında qoyunların diktiokaulyozla yoluxmasında əsaslı dərəcədə fərq olmuşdur. Həmçinin, təcrübə qrupunda kəsilmiş qoyunların ağciyərlərinin helmintoloji yarılması zamanı tapılan helmintlərin sayı da az olmuşdur. Belə ki, invaziyanın ekstensivliyinin orta göstəricisi 32,8%, invaziyanın intensivliyi isə 5 – 19,7 ədəd olmuşdur.*

***Açar sözlər:*** *helmint, diktiokaulyoz, sürfə, otlaq*

Heyvandarlığın inkişaf etdirilməsinin əsas amili ərazinin təbii yem bazasıdır. Təbii yem bazası zəif olduqda heyvandarlıq məhsullarının maya dəyəri yüksək olur və iqtisadi səmərə çox zəif olur.

Naxçıvan MR-də yay otlaqlarının ümumi sahəsi 55032 ha olub, bunun 34 min ha yararlı, 18 min ha-dan çox hissəsi isə yararsız vəziyyətindədir. Naxçıvan Muxtar Respublikasının böyük yaylaq düşərgələri Batabat zonasında yerləşir. Bunlar Batabat, Quluyurdu, Kələkli, Əhmədbəy yurdu, Keçəldağ düşərgələridir. May ayından sentyabr ayının axırına kimi heyvandarlar bu düşərgələrdə qalırlar. Orta hesabla Batabat yaylağında ildə 80-100 düşərgə olur. Yay otlaqlarının əsas hissəsi Şahbuz inzibati rayonunun payına düşür. Yaylaqlar 2200-2300 m hündürlüklü sahələrdən başlayıb, 3500 m-ədək olan sahələri əhatə edir [1, s.31]

Yay otlaqları ilin 6-7 ayını qarla örtülü olur. Yay otlaqlarında çaylar, göllər və bulaqlar çoxdur. Batabat zonası belə su mənbələri ilə daha çox təmin olunmuşdur.

Heyvandarlığın inkişafında yay otlaqlarının rolu əvəzsizdir. Burada heyvan orqanizmi üçün lazım olan qidalı maddələrlə yanaşı, heyvanların böyüməsinə və inkişafına, maddələr mübadiləsinin yaxşılaşmasına, sümüklərin bərkiməsinə müsbət təsir edən ultrabənövşəyi şüaların bolluğu da mövcüddur.[2, s. 14]

Müşahidələr nəticəsində müəyyən edilib ki, yay otlaqlarında saxlanılan mal-qara düzənlik yerdə saxlanılan mal-qaradan yaxşı inkişaf edir, sağlam olur və çəkicə onlardan 1,5-2 dəfə ağır olur [3, s. 24].

Yüksək dağ çəmənləri Naxçıvan Muxtar Respublika ərazisində 2350-3000 m hündürlüklü sahələri əhatə edir. Çəmənlər bitki örtüyü ilə zəngindir, çəmənlər daxilində hündürotlu subalp və alp çəmənləri, alp xalıları aydın seçilir. Alp xalıları adalar şəklində Salvartı, Ağdaban, Qapıcıq, Keçəldağ, Küküdağ regionlarında yayılıbdır. Bu sahələrdən əsasən xırda buynuzlu heyvandarlıqda istifadə edilir. Həddən artıq otarılma nəticəsində çəmənliklərin qiymətli yem bitkiləri azalır, onların yerində az əhəmiyyətli ikinci çəmən tipi yaranır.

Yay otlaqlarının torpaqları dağ-çəmən torpaqları, qismən meşə torpaqlarıdır. Burada bitən bitkilərin 20 faizdən çoxu qiymətli yem bitkisidir. Qalan bitkilər isə heyvandarlıq üçün aşağı keyfiyyətli yem bitkiləridir.Çimli dağ-çəmən torpaqları 2200-2400 m hündürlüklü sahələrdə, orta illik yağıntının qismən çox olduğu Batabat ərazisində, Biçənək aşırımında, Bist, Tivi, Parağa və s ərazilərdə yayılıbdır. Bu torpaqlar dağların şimal və qərb yamaclarında yaxşı inkişaf etmiş, şərq və cənub yamaclarda xeyli yuyulmuş və yarğanlaşmışdır [4, s. 418].

Naxçıvan Muxtar Respublikasında biçənəklər ərazinin 0,75 faizini təşkil edir. Ümumi sahəsi 4034 ha-dır. Biçənəklər dağlıq hissədə meşə talalarını, meşə ətrafı çəmənlikləri, subalp çəmənlərini, düzənlik sahələrdə isə yaşayış məntəqələri ətrafında, çay sahillərində və s sahələrdə yerləşir. Dağlıq hissələrdə olan biçənəklərdə rütubət nisbətən bol, torpaqları münbit olduğundan məhsuldarlıq yüksək olur. Yağıntılar əsasən yazda və payızda düşür. Yayda isə dolu və leysanlar olur. Bu hissədə bulaqlardan qidalanan və üzərləri çimlə örtülən “sucuq” adlanan sahələrdən də biçənək kimi istifadə edilir. Belə sahələr ikinci Batabat gölü üzərində və

ətrafında, Ağ bulaq, Durnalı bulaq, Qızıllı bulaq və s ərazilərdə yerləşir. Belə biçənəklərin sahəsi 0,5 ha-dan 10 ha-ya qədər olur. Dağlıq ərazilərin biçənəklərindən ildə bir dəfə iyul ayında ot çalını olur. Biçənəklərdən ot çalınından sonra otlaq kimi istifadə edilir [4, s. 416 - 421].

Helmintozlar əsasən cavan heyvanlarda ağır keçdiyindən boy və inkişafı ləngidir, məhsul istehsalını azaltmaqla qoyunçuluğa böyük iqtisadi ziyan vurur. Təsərrüfatda “xırda-xuruş”, “arıq-axsaq”, “sısqaların” əksəriyyətini başlıca olaraq helmintozlu heyvanlar təşkil edir. Diktiokaulyoz, fassiolyoz, monezioz və askaridiozda tələfat çox vaxt kütləvi hal alır. Helmintlər və onların sürfələri tərəfindən korlanmış külli miqdarda ət, daxili orqanlar və digər əlavə məhsullar ət kombinatlarında və sallaqxanalarda çıxdaş edilir [5, s. 113].

Diktiokaulyoz zamanı yeyilən yemin xeyli hissəsi itkiyə gedir. Belə ki, yoluxmuş qoyunların enerji balansını tarazlaşdırmaq üçün sağlamlara nisbətən onlara iki dəfə artıq yem verilməlidir. Digər tərəfdən də müalicə-profilaktik tədbirlər xeyli vəsait tələb edir. Hər il diktiokaulyuslara qarşı profilaktik məqsədlə xeyli miqdarda pul xərclənir. Diktiokaulyoza tutulmuş heyvanlar arasında digər yanaşı xəstəliklər nəticəsində də tələfat xeyli artır. Xəstəliyin gedişi ağırlaşdıqda qoyunların təsərrüfat yararlığının müddəti ən azı 1-2 il azalır, onların mədə-bağırsaq və agciyər xəstəliklərinə həssaslığı artır. Diktiokaulyoza tutulmuş qoyunlarda yun qırxımı 250-300 q, çəki artımı isə 10% azalır. Xəstəlikdən kəsilmiş və ya məcburi kəsilmiş qoyunların ağciyərləri, digər daxili orqanları çıxdaş edilir. Kəsilmiş qoyunlarda cəmdək çəkisinin aşağı olması da iqtisadi ziyana aiddir [6, s. 43].

Dağlıq və dağətəyi rayonların qoyunçuluq təsərrüfatlarında, çaykənarı sahələrdə, suvarılan otlaqlarda, nəmliyi çox olan çəmənliklərdə diktiokaulyozla yoluxma yüksək, səhra və yarımsəhra tipli otlaqlarda isə zəif olur. Ağciyərdə yaşayan diktiokaulyuslar qoyunları öldürməsə də belə, ən səciyyəvi əlamətlərindən biri xəstə heyvanları tədricən arıqladırlar. Qoyunlar arıqlayır, zəifləyir ki, bu da xəstəliyin iqtisadi zərərinə aiddir[7, s. 109].

Ədəbiyyat məlumatlarına əsasən, bu helmintlər aralıq sahib olmadan münasib temperatur və nəmlik olduqda üç dəfə qabıq qoymaqla inkişaflarını davam etdirirlər [8, s. 5].

Ədəbiyyat məlumatlarına görə Şahbuz yaylaqları qoyunlar ora gələnə kimi *Dictyocaulus filaria* sürfələrinə görə sağlam olurlar. May ayının sonundan başlayaraq qoyunlar Dictyocaulus filaria sürfələrinə görə sağlam olan yaylaqlara sürülürlər. Yaylaqlara gəlmiş ilk qoyun sürüləri otlaqlara diktiokaulyoz sürfələrini xaric edirlər. Həmin sürfələr isə tədqiqatlara görə öz inkişaflarını 8 gün ərzində başa çatdırırlar və ona görə də yaylaqlara ilk qoyunlar gələndən 8 gün sonra, qoyunların diktiokaulyoz ilə yoluxması gedir. Ona görə də qoyunlar hər 5 gündən bir yeni sağlam otlağa köçürülsələr, onların diktiokaulyozla yoluxmasının qarşısı alınır. Bu qayda ilə bir dəfə otarılmış otlağa qoyunların ən azı 3 aydan sonra buraxılması məsləhətdir. Otlaqların növbə ilə otarılması, ümumiyyətlə, qoyunların helmintozlarına qarşı ən yaxşı profilaktika tədbirlərindən biridir. Otlaqların növbəli istifadə edilməsi şəraitində bir tərəfdə qoyunların qurd xəstəlikləri ilə yoluxmasının qarşısı alınır, digər tərəfdən isə otlaqların səmərəli surətdə istifadə edilməsinə ( otarılmasına ) imkan yaranır. Əlbəttə, otlaqlar çatışmayan zona və rayonlarda belə növbəli otarılmanın həyata keçirilməsi mümkün olmur. Lakin bəzi zonalarda, hətta otlaqlar çatışmayan yerlərdə belə, otlaqların növbə ilə otarılmasını müəyyən qədər təşkil etmək olar. Təcrübəli çobanlar öz otlaq sahələrini həmişə təxmini olaraq bir neçə hissəyə ( taxta, küz ) bölürlər. Hər taxtada qoyun və ya quzunu üç-dörd gün müddətində otarıb sonra digər taxtanı otarmağa başlayırlar [8, s. 9-10].

Tədqiqat apardığımız Şahbuz rayonunun ərazisi qoyunların otarılması üçün geniş yay otlaqlarına malikdir. Həmçinin rayon ərazisində subalp çəmənlikləri biçildikdən sonra həmin ərazilərdən də otlaq sahəsi kimi istifadə edilir. Otlaq sahələrinin genişliyi ərazidə otlaqlardan növbəli istifadə etməyə imkan verir. Şahbuz rayonunun yaylaqlarında iyun, iyul və avqust aylarında optimal hərarətin, rütubətin, kiçik su axarlarının, çoxlu miqdarda bulaqların, kiçik bataqlıqların və yaxşı ot örtüyünün olması diktiokaul sürfələrinin inkişafı üçün çox əlverişlidir. Buna görə də yay aylarında həmin otlaqlara tökülmüş sürfələrin 70-80 faizi 8-10 gün ərzində öz inkişaflarını başa çatdıraraq qoyunların kütləvi surətdə diktiokaulyozla yoluxmasına səbəb olurlar.

Heyvan sağlamlığı üçün həmişə təhlükəli xəstəlik hesab edilən diktiokaulyozun və onun törədicilərinin öyrənilməsi, müasir tələblərə cavab verən səmərəli mübarizə tədbirlərinin işlənib hazırlanması, mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Bu baxımdan respublikamızda diktiokaulyoza qarşı dərman maddələrinin işlənib hazırlanması və tətbiqinə dair müxtəlif araşdırmalar aparılmışdır. Lakin, Şahbuz rayonu ərazisində qoyunların diktiokaulyozunun yayılma səviyyəsinin və onlara qarşı mübarizənin təşkilində otlaq terapiyası və yaxud otlarlardan növbəli şəkildə istifadə edilməsi istiqamətində əsaslı tədqiqat işləri aparılmamışdır. Ona görə də bu istiqamətdə aparılan tədqiqat işləri öz aktuallığı ilə seçilir.

**Material və metodika:** Tədqiqatlar 2018-ci ilin yay mövsümi ərzində Şahbuz rayonunun Batabat, Əhmədbəy yurdu, Kələkli yurdu və Quluyurdu

yaylaqlarında saxlanılan fərdi və fermer qoyunçuluq təsərrüfatlarında aparılmışdır.Belə ki, Şahbuz rayonunun həmin ərazilərində yerləşən yaylarda olan şəxsi və fermer təsərrüfatlarında hər yaylaqda təcrübə qrupu sürüdən 150 baş qoyundan kal nümunələri götürüldü. Həmçinin yaylaqlardakı fermer təsərrüfatlarında nəzarət qrupu sürülərindən 150 baş qoyundan kal nümunələri götürüldü. Ümumilikdə hər yaylaqdakı tədqiqat aparılacaq hər bir sürüdən 10 baş qoyun seçilmişdi. Seçilmiş qoyunların hər birindən 3 qr kal götürülərək Vayda üsulu ilə aparılan koproloji müayinələrdə onların diktiokaulyuslarla yoluxması dəqiqləşdirildi. Həmin yaylaqlardakı fermer təsərrüfatlarda təcrübə qruplarından kəsilmiş və məcburi kəsilmiş qoyunların ağciyərləri natamam yarma üsulu ilə yarılaraq helmintlər müəyyən edildi. Təcrübə aparılan sürünün istifadə edəcəyi otlaqlar əvvəlcədən tərəfimizdən küzlərə bölündü. Qoyunlar hər bir küzdə bir həftə otarılmaqla otlaqlardan növbəli istifadəyə başladıq. 2018-ci ilin yay otarılma dövründə otlaqlardan növbəli istifadəyə tam şəkildə əməl edildi. Tədqiqatlar aparılan kəndlərdəki qoyunlarda profilaktiki dehelmintizasiyalar aparılmamışdır.

**Cədvəl 1**

| Sıra № | Təcrübə qrupları | Qrupdakı heyvanların sayı | Müayinə edilmiş heyvan sayı | Yoluxmuş heyvan sayı | İnvaziyanın ekstensivliyi (%-lə) | 5 qr kalda aşkar edlmiş diktiokaulyoz sürfələrinin sayı (İİ ədəd) |
|---|---|---|---|---|---|---|
| 1 | Batabat | 650 | 150 | 23 | 15,3 | 26,2 ± 1,8 |
| | Batabat (nəzarət qrupu) | 650 | 150 | 42 | 28,0 | 47,2 ± 2,9 |
| 2 | Əhməd yurdu | 650 | 150 | 25 | 16,6 | 28,1 ± 2,1 |
| | Əhməd yurdu (nəzarət qrupu) | 650 | 150 | 650 | 32,0 | 50,1 ± 2,8 |
| 3 | Kələkli yurdu | 650 | 150 | 27 | 18,0 | 31,1 ± 1,91 |
| | Kələkli yurdu (nəzarət qrupu) | 650 | 150 | 45 | 30,0 | 49,2 ± 2,71 |
| | Quluyurdu | 650 | 150 | 29 | 19,3 | 33,2 ± 2,1 |
| 4 | Quluyurdu (nəzarət qrupu) | 650 | 150 | 43 | 28,6 | 46,2 ± 2,8 |

**Alınan nəticələr və onların müzakirəsi.** Şahbuz rayonunun yaylaqlarında otlaqlardan növbəli istifadə edildikdə qoyunlarda aparılan helmintlyarvoskopiya müayinələrin nəticələri cədvəl 1-də verilmişdir.

Şahbuz rayon yaylaqlarında qoyunların diktiokaulyozla yoluxma səviyyəsi (koproloji müayinələrə əsasən)

Cədvəldən göründüyü kimi yay otarılma dövründə rayonun yaylaqlarında aparılmış helmintlyarvoskopiya müayinələrinin nəticələri aşağıdakı kimi olmuşdur:

Batabat yaylağında təcrübə qrupundakı 150 baş qoyundan götürülmüş kal nümunələrinin müayinələri zamanı 23 baş heyvan invaziya ilə yoluxmuşdur, invaziyanın ekstensivliyi 15,3 %,invaziyanın intensivliyi26,2 ± 1,8 ədəd olmuşdur. Batabat yaylağındakı nəzarət qrupundakı 150 baş qoyunun müayinələri zamanı 42baş heyvan invaziya ilə yoluxmuşdur, invaziyanın ekstensivliyi 28,0%, invaziyanın intensivliyi 47,2 ± 2,9 ədəd olduğu tərəfimizdən aşkar edilmişdir. Əhməd yurdu yaylağında təcrübə qrupundakı 150 baş qoyunun müayinələri zamanı 25 baş heyvan invaziya ilə yoluxmuşdur, invaziyanın ekstensivliyi 16,6 %, invaziyanın intensivliyi 28,1 ± 2,1 ədəd olmuşdur. Əhməd yurdu yaylaq nəzarət qrupundakı 150 baş qoyunun müayinəsi zamanı 48 baş heyvan invaziya ilə yoluxmuşdur, invaziyanın ekstensivliyi 32,0%,invaziyanın intensivliyi 50,1 ± 2,8 ədəd olmuşdur. Kələkli yurdu yaylaq təcrübə qrupundakı 150 baş qoyunun müayinələri zamanı 27 baş heyvan invaziya ilə yoluxmuşdur, invaziyanın ekstensivliyi 18,0%, invaziyanın intensivliyi 31,1 ± 1,91 ədəd olmuşdur. Kələkli yurdu yaylaq nəzarət qrupundakı 150 baş qoyunun müayinəsi zamanı 45 baş heyvan invaziya ilə yoluxmuşdur, invaziyanın ekstensivliyi 30,0%, invaziyanın intensivliyi 49,2 ± 2,71 ədəd olmuşdur. Quluyurdu yaylaq təcrübə qrupunda 150 baş qoyunun müayinələri zamanı 29 baş heyvan invaziya ilə yoluxmuşdur, invaziyanın ekstensivliyi 19,3 %, invaziyanın intensivliyi 33,2 ± 2,1 ədəd olmuşdur. Quluyurdu nəzarət qrupundakı 150 baş qoyunun müayinəsi zamanı 43 baş heyvan invaziya ilə yoluxmuşdur, invaziyanın ekstensivliyi 28,6%, invaziyanın intensivliyi 46,2 ± 2,8 ədəd olduğu tərəfimizdən aşkar edilmidir.

Şahbuz rayonunun yaylaqlarında otlaqlardan növbəli istifadə edildikdə kəsilmiş qoyunların ağciyərlərinin natamam yarma üsulu ilə aparılmış müayinələrinin nəticələri cədvəl 2-də verilmişdir.

**Cədvəl 2**

**Qoyunların diktiokaulyozla yoluxma səviyyəsi (helmintoloji yarma müayinələrinə görə)**

| Kəndlər | Müayinə edilmişdir | Yoluxmuşdur | İnvaziyanın ekstensivliyi %-lə | Aşkar edilmiş diktiokausların sayı (ədəd) İİ |
|---|---|---|---|---|
| Batabat | 17 | 6 | 35,2 | 7 – 24 |
| Əhməd yurdu | 14 | 5 | 35,7 | 6 – 21 |
| Kələkli yurdu | 11 | 3 | 27,2 | 4 – 18 |
| Qulu yurdu | 12 | 4 | 33,3 | 3 – 16 |
| Cəmi | 54 | 18 | | |
| Orta göstərici | | | 32,8 | 5 –19,7 |

2 №-li cədvələ əsasən yay otarılma dövründə rayonun yaylaqlarında kəsilmiş qoyunların

ağciyərlərinin natamam yarma üsulu ilə müayinələrinin nəticələri aşağıdakı kimi olmuşdur : Batabat yaylağında təcrübə qrupundakı 17 baş qoyunun ağciyərlərinin yarılması zamanı 6 başın ağciyərləri invaziya ilə yoluxmuşdur, invaziyanın ekstensivliyi 35,2%, invaziyanın intensivliyi isə 7 - 24 ədəd olmuşdur. Əhməd yurdu yaylağındakı təcrübə qrupundakı 14 baş qoyunun ağciyərlərinin yarılması zamanı 5 başın ağciyərləri invaziya ilə yoluxmuşdur, invaziyanın ekstensivliyi 35,7%, invaziyanın intensivliyi 6 – 21 ədəd olmuşdur. Kələkli yurdu yaylağında təcrübə qrupundakı 11 baş qoyunun ağciyərlərinin yarılması zamanı 3 başın ağciyərləri invaziya ilə yoluxmuşdur, invaziyanın ekstensivliyi 27,2%, invaziyanın intensivliyi 4 – 18 ədəd olmuşdur. Qulu yurdu təcrübə qrupundakı 12 baş qoyunun ağciyərlərinin yarılması zamanı 4 başın ağciyərləri invaziya ilə yoluxmuşdur, invaziyanın ekstensivliyi 33,3%, invaziyanın intensivliyi 3 – 16 ədəd olmuşdur. Ağciyərlərin helmintoloji yarma nəticələrinin ekstensivliyinin orta göstəricisi 32,8%, intensivliyinin orta göstəricisi 5 – 19,7 olmuşdur.

Şahbuz rayonunun yaylaqlarında saxlanılan fermer təsərrüfatlarındakı qoyunlarda aparılmış helmintlyarvoskopik müayinələrin nəticələrinin təhlili göstərmişdir ki, yay otarılma dövründə otlaqların növbə ilə otarılması zamanı təcrübə qrupları ilə nəzarət qrupları arasında qoyunların diktiokaulyozla yoluxmasında əsaslı dərəcədə fərq olmuşdur. Həmçinin təcrübə qrubunda kəsilmiş qoyunların ağciyərlərin helmintoloji yarılması zamanı tapılan helmintlərin sayı da az olmuşdur. Bizim fikrimizcə yay otarılma dövründə fermerlər otlaqları küzlərə bölərək otlaqların növbə ilə otarılmasından istifadə etsələr qoyunların xəstəlikdən yoluxmasının qarşısını almaq olar. Həmçinin fermerlər otlaqların növbə ilə otarılmasından istifadə etməklə xeyli dərəcədə maliyyə vəzaitinə qənaət etmiş olarlar.

**ƏDƏBİYYAT**

1.Babayev S. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı: Elm, 1999, 226 s. 2.Məhərrəmov S.H. Naxçıvan Muxtar Respublikasının helmintofaunası. Naxçıvan, 2014, 142 s. 3. M.A.Museyibov. Azərbaycanın fiziki coğrafiyası. Bakı, 1998. 4.Rüstəmov X., Əliyeva N. Naxçıvan MR-də otlaq və biçənəklərin mühafizəsinə dair// Azərbaycanda elmin İnkişafı və regional problemləri. Bakı, 2005, s.416-421. 5.К.И.Абуладзе, Н.В.Демидов, А.А.Непоклонов и др. Паразитология и инвазионные болезни сельскохозяйственных животных. Москва, ВО Агропромиздат, 1990, 464 с. 6.E.Q.Qocayev. Parazitologiya və kənd təsərrüfatı heyvanlarının invazion xəstəlikləri. Bakı, Maarif, 1984, 270 s. 7.Məmmədov A.Q., Hacıyev Y.H., Şirinov N.M., Ağayev Ə.Ə. Baytarlıq parazitologiyası. Bakı: Azərnəşr, 1986, 435 s. 8. Y.Hacıyev. Qoyunlarda diktiokaulyoz və onunla mübarizə tədbirləri. Bakı. 1965. 50 s.

**Профилактические мероприятия против диктиокаулеза овец на летних пастбищах Шахбузского района**

**Ф. Н. Ибадов**

В статье отражено изучение использование летних пастбищ Шахбузского района посменного выпаса ихпротив диктиокаулеза овец. Исследовательская работа было проведено в Батабате, Ахмед -, Келекли - и Кулуюрдных пастбищах на индивидуальных и фермерских хозяйствах. В общности каждой из стад выпасанном на пастбищах опытной и контрольной группы отобрано каловые массы из 150 голов овец. В ходе опытов вышеописанные пастбище в начале для выпаса опытных групп выделены на овчарни. Овцы в каждом овчарне выпасались одна неделя и использовалось от пастбищ посменно. Анализ результатов гельминтоларвоскопических исследований у овец показали что, обнаружено существенная разница между опытной и контрольной группы при заражении овец диктиокаулезом. Также, в легких убойных опытной группы животных при проведении гельминтологических вскрытий обнаружено гельминты в малых количествах. Таким образом, средний показатель экстенсивности инвазии составлял 32,8 %, а интенсивность инвазии 5-19,7 штук.

***Ключевые слова:*** *гельминт, диктиокаулез, личинка, пастбища*

**Profilactıc events agaınst dıctyocaulıosıs of the sheep ın the plateaus of Shahbuz regıon**

**F.N. Ibadov**

The article deals with the study of the use of pastures in turn against dictyocauliosis of the sheep in the plateaus of Shahbuz region. The investigations were carried out in private and farmer agricultures of Batabat, Ahmad yurd, Kalakli yurdu and Quluyurdu plateaus of Shahbuz region. In general, 150 feces samples were taken from the flocks pastured in experiment and surveillance groups of each plateau. The mentioned plateaus were divided into parts beforehand for pasturing the surveillance groups. The pastures were used in turn by pasturing once in each part. The analysis of the results of the larva examination of the sheep in the plateaus showed that there have been enormous differences between the experiment and surveillance groups in the contamination of the sheep to dictyocauliosis. Also, the number of the larvas found in the lungs of cut sheep during larva operation in experiment groups were less. So, the average of the extension of invasionwas 32,8%, and the intensivity of the invasion was 5-19,7.

***Key words:*** *helminthes, dictyocauliasis, larva, pasture*